**Azərbaycan Respublikası**
**Xarici İşlər Nazirliyi**

Haraya: **SAFN, SSOF, STFL, SKŞN, SBXR, SMSK, SBQR, KİST, SKYV**
Surəti:
Göndərilmə nömrəsi: 5/32-1201/02/16 Tarix: 12.01.16
Sənəd necə göndərilir: **Elektron poçt**
Səhifələrin sayı: **1** Əlavə: 8 v.
Məhdudluğu qrifi: **Adi**
Təcililiyi: **Adi**
Vacibliyi: **Vacib**

Bildiririk ki, 2015-ci ilin 9-11 dekabr tarixlərində Buxarest şəhərində Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının və Yüksək Vəzifəli Şəxslər Komitəsinin iclasları keçirilmişdir.

Sözügedən iclaslara dair hesabatı nəzərə alınması üçün göndəririk.

**Nazir müavini** **Mahmud Məmməd-Quliyev**

MİƏİ-nin rəis müavini A.Hüseynov

MİƏİ-nin birinci katibi A.Ramazanov

**9-10 dekabr 2015-ci il tarixində Buxarestdə keçirilmiş Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Yüksək Vəzifəli Şəxslər Komitəsinin (YVŞK) və 11 dekabr tarixində keçirilmiş Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) iclaslarına dair**

# Hesabat

9-10 dekabr 2015-ci il tarixində Buxarestdə keçirilmiş QDİƏT YVŞK iclası zamanı müzakirə olunan aşağıdakı əsas məqamlara diqqət çəkmək lazımdır.

1. **Ermənistanın informasiya və kommunikasiya texnologiyaları (İKT) sahəsində təqdim etdiyi layihənin yenidən QDİƏT gündəliyinə çıxarılması cəhdi**. İclasın əvvəlində gündəliyin müzakirəsi zamanı Ermənistan tərəfi "QDİƏT İKT İnkubatorlar Assosiasiyalarının yaradılması" adlı layihə təklifini təşkilatın gündəliyinə salınması təklifi ilə çıxış etmişdir. Azərbaycan tərəfi buna qarşı çıxaraq məsələnin QDİƏT gündəliyindən artıq çıxarıldığını vurğulamış və yenidən bu məsələyə qayıtmağı və hər-hansısa müzakirələrin açılmasının mənasız olacağını iclas iştirakçılarının diqqətinə çatdırmışdır. Ermənistan tərəfi bu təkliflərinin ölkəmiz tərəfindən qarşısının alınacağını əvvəlcədən bilərək bəyanat hazırlamışdır. Azərbaycan tərəfi də cavab olaraq öz bəyanatını vermiş və beləliklə Ermənistan tərəfinin təklifinin gündəlik layihəsinə salınmasının qarşısı alınmışdır (bəyanatlar əlavə olunur).

2. **QDİƏT-də islahatlar prosesi.** İslahatlar prosesi ilə bağlı aparılan müzakirələrdə Rumıniya tərəfinin sədrliyi zamanı hazırlandığı QDİƏT-in səmərəliliyinin və fəaliyyətinin gücləndirilməsinə dair məcmuə sənədi üzv ölkələrin diqqətinə təqdim edilmişdir. Qeyd olunan sənəd islahatlar prosesi ilə bağlı QDİƏT-in aidiyyəti iclaslarının nəticələri əsasında tərtib edilmişdir. Müzakirələr zamanı Rusiya tərəfi açıq şəkildə islahatların keçirilməsinin əleyhinə olduğunu vurğulamışdır. Qeyd edilmişdir ki, islahatların keçirilməsi əvəzinə təşkilat çərçivəsində qəbul edilmiş qətnamə və qərarların icrasını təmin etmək vacibdir. Rusiyanın bu təklifinə üzv ölkələrdən yalnız Ermənistan dəstək vermişdir. Azərbaycan tərəfi müzakirələr zamanı Rusiyanın islahatlar prosesində konkret olaraq nəyə qarşı çıxdığına dair sual vermişdir. Cavab olaraq bildirilmişdir ki, Rusiya tərəfi təşkilatın əsas hüquqi sənədlərdə dəyişikliklərinin aparılmasının qəti şəkildə əleyhinədir, lakin təşkilatın səmərəliliyinin artırılması istiqamətində tədbirlərin həyata keçirilməsi məsələsinə baxılmasını istisna etmir. Tərəflər sözügedən sənəd layihəsi üzrə müzakirələrin islahatlar prosesi ilə bağlı YVŞK-nın xüsusi iclasının keçirilməsini təklif etmiş və islahatlara dair müzakirələrin növbəti iclaslar zamanı davam etdirilməsinə dair razılığa qəlmişlər.

3. **QDİƏT işçi qruplarının səlahiyyət çərçivələrinin müəyyənləşdirən sənədlərin (terms of reference) qəbulu**. Azərbaycan tərəfi qeyd olunan məsələnin təşkilatda aparılan islahatlar prosesi çərçivəsində baxılmasının vacibliyini vurğulayaraq xatırlatmışdır ki, islahatlar prosesinin əsas istiqamətlərindən biri işçi qruplarının saylarının azaldılmasıdır. Bu səbəbdən tərəfimizdən QDİƏT çərçivəsində mövcud olan Meşə yanğınları üzrə, Sel və axınlar üzrə xüsusi işçi qruplarının "terms of refernce" adlı sənədlər müzakirədən çıxarılmış və sözügedən işçi qruplarının QDİƏT-in Fövqəladə hallar üzrə işçi qrupu ilə birgə vahid "terms of refernce" adlı sənədinin hazırlanmasının vacibliyi qeyd edilmişdir.

4. **Sənayeçi və İş Adamlarının Beynəlxalq Konqresi ilə QDİƏT katibliyi arasında Anlaşma Memorandumunun layihəsinin müzakirəsi.** Tərəfimizdən layihənin qəbul edilməsinin qarşısı alınmışdır. Azərbaycan tərəfi qeyd olunan Konqresin QDİƏT-in Biznes Şurası ilə oxşar sənəd imzaladığının xatırladaraq hazırkı mərhələdə yeni sənədin imzalanmasına ehtiyacın olmadığını bildirmişdir. Qeyd olunmuşdur ki, Konqres ilk öncə Biznes Şura ilə əməkdaşlığından faydalanmalı, sonradan zərurət yarandığı təqdirdə QDİƏT-lə də anlaşma memorandumun imzalanması məsələsinə baxıla bilər.

5. **Qara Dəniz - Xəzər Dənizi Beynəlxalq Dialoq Fondun QDİƏT-də müşahidəçi statusunun alınması ilə bağlı müraciəti.** Qeyd etmək lazımdır ki, sözügedən Fond 2014-cü ildə məhz Rusiya və Ermənistanın etirazı səbəbindən QDİƏT-də müşahidəçi statusunu ala bilməmişdir. Bu dəfə Fondun müşahidəçi statusunun alması müraciətinə Ermənistan tərəfinin qarşı çıxmasına baxmayaraq, Rusiya tərəfinin mövqeyi bir qədər fərqli olmuşdur. Belə ki, Rusiya tərəfi Ermənistanın etirazına baxmayaraq Fondun nümayəndələrinin YVŞK-nın növbəti iclasında Fonda dair təqdimatla çıxış etməyə dəvət edilməsini təklif etmiş və müzakirələrin nəticəsi olaraq, Fondun QDİƏT-də müşahidəçi statusunun alınması ilə bağlı müraciətinin növbəti iclasda baxılmasına dair razılıq əldə olunmuşdur.

6. **İnformasiya və kommunikasiya texnologiyaları (İKT) üzrə işçi qrupunda əlaqələndirici ölkənin təyinatına dair.** Azərbaycan tərəfi Rabitə və Yüksək Texnologiyaları Nazirliyinin rəsmi razılığı ilə İKT üzrə işçi qrupunda əlaqələndirici ölkə qismində təyin olunması üçün namizədliyini irəli sürmüşdür. Bu işçi qrupunda əlaqələndirici ölkə funksiyasını yerinə yetirən Ermənistanın vəzifə müddəti 2015-ci ilin 30 iyun tarixində bitmiş və növbəti iki il ərzində funksiyaların yenidən davam etdirilməsi ilə bağlı bu ölkə tərəfindən də QDİƏT katibliyinə müraciət edilmişdir. Bu vəzifə üzrə QDİƏT çərçivəsində keçirilən iclaslar zamanı aparılan gərgin müzakirələrə baxmayaraq, Ermənistanın qeyri-konstruktiv mövqeyi səbəbindən, həmin işçi qrupunda əlaqələndirici ölkənin təyin olunması mümkün olmamışdır. YVŞK-nın bu iclası zamanı da İKT üzrə işçi qrupunda əlaqələndirici ölkə vəzifəsinə heç bir tərəfin öz namizədliyini geri götürmədiyi səbəbindən nəticə əldə etmək mümkün olmadığı üçün sözügedən məsələnin müzakirəsi YVŞK-nın növbəti iclasınadək təxirə salınmışdır.

7. **QDİƏT katibliyində hüquq məsləhətçisi vəzifəsinə təyinat.** Sözügedən vəzifə üzrə Albaniya və Gürcüstan tərəfindən namizədliklər irəli sürülüb. İclas zamanı Albaniya nümayəndəsinin gözlənilməyən səbəblərdən iştirak etmək imkanında olmadığı üçün səsvermə baş tutmamış, lakin buna baxmayaraq, iclasda iştirak edən Gürcüstan namizədi tərəfindən seçiləcəyi təqdirdə təşkilatdakı fəaliyyətinə dair təqdimatı dinlənilmişdir. İclas zamanı Gürcüstan tərəfi, Albaniya nümayəndəsinin olub-olmadığından asılı olmayaraq seçkilərin keçirilməsini təkid etmişdir və bu Rusiya, Albaniya və Gürcüstan arasında qızğın mübahisəyə səbəb olmuşdur. Nəticədə növbəti YVŞK iclası zamanı Albaniya nümayəndəsinin dinləmələrdə iştirak etmədiyi təqdirdə bu onun namizədliyinin geri götürdüyü kimi qiymətləndiriləcəyinə dair razılığa gəlinmişdir.

**QDİƏT Xarici İşlər Nazirləri Şurasının iclası**

11 dekabr 2015-ci il tarixində Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) iclası keçirilmişdir. İclasda xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyevin rəhbərliyi ilə

nümayəndə heyəti iştirak etmişdir. İclas zamanı üzv dövlətlərin nümayəndələri çıxışlar etmişdir. Nazir müavini M. Məmməd-Quliyev öz çıxışında QDİƏT-in 2017-ci ildə 25-ci il dönümünün qeyd olunacağı və bu tarixədək təşkilatın daha məqsədyönlü, yeni layihələrin təşəbbüskarı və onların həyata keçirilməsi üzrə regional iştirakçıya çevrilməsinə istiqamətlənən konkret qərarların qəbul olunacağına ümidvar olduğunu ifadə etmiş və bu məqsədlərə nail olmaq üçün ən azı iki istiqamətə diqqət yetirilməsinin vacibliyini vurğulanmışdır. Burada QDİƏT-də islahatların keçirilməsi və regionda tam əməkdaşlığın təmin edilməsi üçün əsas maneə olan regionda davam edən, xüsusilə Azərbaycan və Ermənistan arasında mövcud olan münaqişələrin həll olunmaması məsələlərinə istinad edilmişdir.

Azərbaycan tərəfi QDİƏT-də islahatlar prosesinin dəstəklədiyini və bunun beynəlxalq miqyasda gedən sürətli dəyişikliklərə qarşı QDİƏT-in davamlı olması və daha yaxşı adaptasiya edilməsi üçün vacib olduğunu diqqətə çəkmişdir. Eyni zamanda, çıxış zamanı Nazir müavini QDİƏT çərçivəsində tam miqyaslı əməkdaşlığın inkişaf etdirilməsi üçün regionda münaqişələrin həllinin vacibliyini vurğulayaraq, Azərbaycan və Ermənistan arasında mövcud olan münaqişənin həlli istiqamətində son XİNŞ iclasından hər hansı irəliləyişin olmadığını, Ermənistanın ATƏT-in Minsk Qrupu həmsədrlər dövlətlərinin prezidentləri də daxil olmaqla, beynəlxalq ictimaiyyətin sülh müqaviləsi üzərində nəticəyönümlü danışıqlara başlanılmasına dair çağırışlarına məhəl qoymadığını, Ermənistan rəhbərliyinin qeyri-qanuni güc tətbiqi və etnik təmizlənmə vasitəsilə yaradılmış davamlı olmayan status-kvonun möhkəmləndirilməsi üçün danışıqlarda iştirak görüntüsü yaratdığını bildirmişdir. Eyni zamanda qeyd olunmuşdur ki, Ermənistanın Azərbaycana qarşı işğalına son qoyulması və Ermənistan qoşunlarının işğal edilmiş ərazilərimizdən çıxarılması, mühüm etimadyaradıcı tədbir olacaq və sülh prosesinin dinamikasını tamamilə dəyişərək, QDİƏT-in vacib hissəsi sayılan yalnız Cənubi Qafqaz deyil, o cümlədən bütün regionunun hərtərəfli və davamlı inkişafı üçün geniş imkanlar aça bilər.

Həmçinin, Azərbaycan tərəfi Ermənistan nümayəndəsinin çıxışı zamanı Ermənistan və Azərbaycan arasında münaqişənin nəticələrinə dair təhrifə yol verdiyini və bununla tədbir iştirakçılarını çaşdırmaq məqsədi güddüyünü nəzərə alaraq, Azərbaycan tərəfi cavab vermək hüququndan istifadə edərək əlavə yazılı bəyanat təqdim etmişdir. Ermənistan tərəfi də, həmin bəyanata cavab bəyanatı vermişdir (bəyanatlar əlavə olunur).

Eyni zamanda, Rumıniya xarici işlər nazirləri ölkəsinin təşkilatda sədrlik etdiyi dövrdə həyata keçirilən tədbirlər haqqında məlumat vermişdir. İclasda təşkilatın aidiyyəti qurumlarının nümayəndələri iştirak etmişdir.

Növbəti 6 ay müddətinə sədrlik Rusiya tərəfinə keçmişdir.

Qeyd etmək lazımdır ki, Buxarestdə keçirilən XİNŞ-in iclasında təmsilçilik səviyyəsi aşağı olmuşdur. Belə ki, bir sıra ölkələr hətta idarə rəisi və rəis müavini səviyyələrdə təmsil olunmuşdurlar. Bu da zənnimizcə, üzv ölkələrin təşkilata olan marağının göstəricisi kimi qiymətləndirilə bilər.

# STATEMENT BY THE REPUBLIC OF ARMENIA

The Republic of Armenia strongly condemns the policy of Azerbaijan towards the Armenian initiative on the "Establishment of the BSEC ICT Incubators Association", which has been highly appraised within the framework of the Project Management Union was supported by partners from Bulgaria, Georgia, Hellenic Republic, Moldova and Romania and introduced by the latter for a BSEC labeling.

While placing particular importance to the enhancement of the BSEC multilateral economic cooperation, the Republic of Armenia considers it entirely inappropriate that Azerbaijan continues its pernicious campaign to eliminate so far the first and the only ready-made PMU project of a purely economic nature out of the BSEC agenda, fabricating politically charged allegations and baseless pretensions towards the project.

The Republic of Armenia states, therefore, that the project-resulted agenda of BSEC and the mission of PMU have been seriously undermined and discredited, and the whole responsibility for that rests exclusively on Azerbaijan.

Being absolutely confident that the project on the "Establishment of the BSEC ICT Incubators Association" has an exceptional importance for an enhancement of economic cooperation in the filed the Republic of Armenia will contemplate examining new possibilities for the implementation of the project including those within the Organization of BSEC.

In the meanwhile, the Republic of Armenia has to declare, with regret, that it reserves the right to undertake adequate backlash measures towards Azerbaijan in future.

# STATEMENT BY THE REPUBLIC OF AZERBAIJAN
## (in reply to the Statement by Armenia)

The Republic of Azerbaijan states with regret, that despite the concerns expressed by the Republic of Azerbaijan with regard to the project proposal of Armenia on the "Establishment of the BSEC Association of ICT Incubators", Armenia has attempted to bring the issue into the BSEC agenda.

Armenia does not hide the real intentions behind supporting this initiative. In addition to the existing close contacts of the Enterprise Incubator Foundation (EIF) of Armenia with an illegitimate regime established in the occupied territories of the Republic of Azerbaijan by Armenia, the facts revealed that a new ICT center is planned to be launched in the occupied territories of the Republic of Azerbaijan under the guidance of the Government of Armenia and with direct involvement and substantive assistance of the EIF. This plan was made public at the ArmTech-2014 forum held on 26 September 2014 in New York with participation of the President of Armenia.

The Republic of Azerbaijan finds it expedient to remind that by undertaking this activity, Armenia continues to violate the relevant United Nations Security Council and General Assembly Resolutions.

Armenia also violates the BSEC Charter that reaffirms adherence of Member States to the generally recognized principles and rules of international law as well as the "Guidelines of the BSEC Project Management Unit" (PMU), in accordance with which only projects that promote social, economic and environmental development of the region, do not jeopardize the legitimate interests of any BSEC Member State and respect the principles and rules of international law should be accepted.

In future, Armenia, while putting forward any initiatives within the BSEC, must refuse from pursuing its purely political interests in the region. Moreover, the language of threats by this country is not acceptable and contra-productive in terms of increasing the effectiveness and efficiency of the BSEC.

**Statement**
**by the Republic of Azerbaijan**
(in reply to the statement by Armenia)

The allegations contained in the statement of the Republic of Armenia are yet another eloquent testimony to the former's policy of lies and falsifications. It represents an attempt to mislead the international community with regard to the real causes of the conflict between Armenia and Azerbaijan and its political, military and humanitarian consequences. However, the facts testify the situation diametrically opposite to what Armenia asserts.

It is well known that the armed conflict started with overtly laid claims by Armenia to the territory of the Nagorno-Karabakh region of Azerbaijan. Armenia unleashed the war, used force against Azerbaijan and occupied its territories, including the Nagorno-Karabakh region and seven adjacent districts; carried out ethnic cleansing of the seized areas by expelling about one million Azerbaijanis from their places of origin, committed other serious crimes during the conflict and established the ethnically constructed subordinate separatist entity on the occupied Azerbaijani territory.

Armenia is not genuinely interested in seeking a political settlement of the armed conflict and, instead, pursues the path of escalation, undertaking consistent measures to consolidate the results of its occupation policy and its annexationist aspirations through conducting large-scale military exercises in the occupied territories, illegally changing the demographic, cultural and physical character of the occupied territories, engaging in economic and other activities, including transfer of Armenian population into these territories with the ultimate goal of imposing a *fait accompli* situation.

The international community has overwhelmingly rejected the illegal separatist entity established by Armenia in the occupied territories of Azerbaijan and did not recognize as legitimate the situation created through the use of force against the territorial integrity of Azerbaijan, accompanied by the notorious practice of ethnic cleansing and other flagrant violations of the peremptory norms of international law.

The international community has consistently deplored and condemned in the strongest terms the use of military force against Azerbaijan and the resulting occupation of its territories. In 1993, the UN Security Council adopted resolutions 822 (1993), 853 (1993), 874 (1993) and 884 (1993), condemning the use of force against Azerbaijan and occupation of its territories and reaffirming the sovereignty and territorial integrity of Azerbaijan and the inviolability of its internationally recognized borders. In those resolutions, the Security Council reaffirmed that the

Nagorno-Karabakh region is part of Azerbaijan and demanded immediate, complete and unconditional withdrawal of the occupying forces from all occupied territories of Azerbaijan.

In addition to the above-mentioned resolutions, UN General Assembly adopted resolution 62/243 of 14 March 2008, which reaffirmed continued respect and support for the sovereignty and territorial integrity of Azerbaijan within its internationally recognized borders, demanded the immediate, complete and unconditional withdrawal of all Armenian forces from all the occupied territories of Azerbaijan, reaffirmed the inalienable right of the Azerbaijani population expelled from the occupied territories to return to their homes, and stressed the necessity of creating appropriate conditions for this return, including the comprehensive rehabilitation of the conflict affected territories.

The Republic of Azerbaijan once again underlines that it shall never reconcile with the seizure of its territories. The primary objective of the ongoing peace process, based on the aforementioned resolutions of the UN Security Council, is to ensure the unconditional and complete withdrawal of the Armenian armed forces from the Nagorno-Karabakh region and other occupied territories of Azerbaijan and the exercise by the forcibly displaced population of its inalienable right to return. The resolution of the conflict is possible only on the basis of the sovereignty and territorial integrity of Azerbaijan within its internationally recognized borders.

## Statement by the Republic of Armenia

(in connection with the statement of Azerbaijan)

The Republic of Armenia states, with regret, that it has to be again involved in the baseless political discussion with the aim to solely give a response to the Azerbaijani statement, which misinterprets the causes and consequences of the Nagorno-Karabakh conflict, the fundamental norms and principles of international law and the negotiation process itself.

Calling upon the Chairmanship-in-Office of BSEC, the Member States and the BSEC PERMIS the Republic of Armenia would like to put on record that, notwithstanding the efforts that have been persistently made within BSEC in order to keep the Organization off politics, it remains explicit that Azerbaijan is not going to give up bringing political insinuations into the BSEC overall agenda and renounce its continuous infringements of norms and principles enshrined in the BSEC Charter, spoiling in the meantime the atmosphere of trust and confidence within the Organization.

BSEC has been created as a multilateral economic platform for mutually beneficial cooperation for the sake of regional and national prosperity.

If, nevertheless, the Republic of Azerbaijan is not quite prepared to fulfill its duties within the multilateral economic cooperation framework in conformity with the BSEC Charter imposing politically charged approaches to the Member States and to the Organization as a whole, then the mission of BSEC is evidently put under the considerable risk.